

# SAF VƏ MÜQƏDDƏS ÖMÜR YAŞAYANLAR

## Düşüncələr...

*İbrahim YUSİFOĞLU,*
*AYB-nin üzvü, "Şərur" Ədəbi Birliyinin rəhbəri, "Qızıl qələm" mükafatı laureatı, Prezident mükafatçısı*

**... Boyumuz partaya çatmayanda boylarından boy veriblər boyumuza. Əlimiz qələm tutmaq istəyəndə ürəklərindən güc, hərarət veriblər əllərimizə.Dünyanın ən zəngin lüğət fondunu köçürüblər dilimizə, hafizəmizə.Bəlkə ona görədir ki, həyatda ən çox həsəd apardığımız peşə sahibləri müəllimlər olublar. Bəlkə ona görədir ki, ömrümün 17 - ci ilindən başlayaraq əlimə sinif jurnalı alıb müəllimlik edirəm, bu adı şərəflə daşıyıram və bununla fəxr edirəm.**

... Onlar ömürlər içində ən müqəddəs ömür yaşayırlar: Müəllim ömrü! Bu ömür şam edilir, yanır, yandıqca da işıq saçır. Bu işığın ətrafına yığışmış pərvanələrinə boy atmağı, bərkiməyi, dünyanın sirlərini öyrənməyi öyrədirlər. Müəllim ömrünün işığına toplaşmış gülüzlü balalar böyüyüb pərvazlanır, həyatda öz yerlərini tapırlar. Ucaldıqca, şan - şöhrətə çatdıqca qəlblərinin dərinliyində müqəddəs müəllimlərini yaşadırlar.

Ulu Tanrı Odlar Yurdu Azərbaycandan öz nadir nemətlərini əsirgəməmiş, buludlar yaran dağlar, coşqun çaylar, göz yaşı kimi saf sulu bulaqlar, mavi sulu Xəzər, bərəkətli torpaqlar bəxş etmişdir. Bəlkə ona görədir ki, bu torpağın övladları öz halal əməkləri ilə ad - san qazanmışlar.

Mənbəyini bulaq sularından almış əfsanəvi Arpaçayı, Araz, Kür çayları torpaqlarımıza saflıq, bərəkət gətirir. Bu gün respublikamızda gözəl və yaraşıqlı kəndlər, qəsəbələr, şəhərlər salınmışdır. Burada diqqəti daha çox cəlb edən müasir tipli, hər cür avadanlıqlarla təmin olunmuş məktəb binalarıdır. Pəncərələri günəşə açılan, qoynunda uşaq gülüşləri, şən nəğmələr yüksələn məktəblərimizdə ömürlərini şam kimi əridən pedaqoqlarımız çalışırlar. Ömürləri ömürlərə səpələnmiş, saçlarına təbaşir tozu ələnmiş müqəddəs müəllim taleyi yaşayan bu insanlar heç vaxt heç nə ummadan gələcəyimiz olan balalarımızın təlim - tərbiyəsi ilə məşğul olurlar...

Artıq üçüncü həftədir ki, respublikamızın hər yerində yeni dərs ilinə başlanmış, üç aylıq sükutdan sonra təhsil müəssisələri yenidən səsli - küylü günlərinə qovuşmuşdur.Ötən dərs ilinin yekunlarına nəzər salarkən məlum olur ki, pedaqoji kollektivlər, gələcəklə bağlı müxtəlif arzuları ürəyində yaşadan yüzlərlə uşağın və yeniyetmənin səbrli yol göstərəni olan müəllimlərimiz məktəbə də, burada təhsil alanlara da əsl vətəndaş, layiqli pedaqoq münasibəti ilə yanaşır, onların təhsili, təlim - tərbiyəsi ilə lazımi səviyyədə məşğul olurlar. Məhz bunun nəticəsidir ki, ötən dərs ilində tam orta məktəbləri bitirmiş məzunlarımız kolleclərə və ali məktəblərə qəbul imtahanlarında iştirak etmiş, uğurlu nəticələr qazanmışlar.

Bu gün fərəh hissi ilə qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərimizin əksəriyyəti son iyirmi beş ildə tamamilə yeni görkəm almış, şəhərlər, eləcə də kəndlərimizin əksəriyyətində müasir tipli, yaraşıqlı təhsil ocaqları tikilmiş, yaxud əsaslı şəkildə yenidən qurulmuş yeni məktəb binaları öz sevimli şagirdlərini və müəllimləri ağuşuna almışdır. Bütün bunlar onu göstərir ki, Respublikamızda təhsil sahəsində ümummilli liderimiz tərəfindən başlanmış islahatlar cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.Məktəblərdə çalışan müəllimlər, təhsil alan şagirdlər üçün hər cür qayğı göstərilir.

Eyni zamanda, müqəddəs müəllim ömrü yaşayanlara həmişə hörmətlə yanaşılır və layiqli müəllimlərin əməyi yüksək qiymətləndirilir. Son illərdə respublika məktəblərində çalışan pedaqoqlar Azərbayvan Respublikasının Əməkdar müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adlarına layiq görülmüş, " Tərəqqi " medalı ilə təltif olunmuşlar. Respublika Prezidentinin sərəncamı ilə müəllimlərimiz " İlin ən yaxşı müəllimi ", məktəblərimiz isə " İlin ən yaxşı ümumi təhsil müəssisəsi " müsabiqəsinin qalibi olmuşlar.

Fateh İskəndərdən soruşurlar: " Atanı çox istəyirsən, ya müəllimini? " İskəndər deyir ki, müəllimimi! " Çünki, atam məni fani dünyaya gətirmişdir, müəllimim isə mənə əbədiyyət bəxş etmişdir.

Böyük M.K.Atatürk demişdir ki, " Millətləri qurtaranlar yalnız və ancaq müəllimlərdir. Müəllimdən, tərbiyəçilərdən məhrum bir millət hələ bir millət adını almaq ixtiyarını qazanmamışdır."

"Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev məktəb və müəllim adını yüksək səviyyədə qiymətləndirmişdir: " Məktəb, müəllimlər həmişə xalq, insanlar arasında, ictimaiyyətdə hörmət, ehtiram qazanmışlar və buna nail olmuşlar. Müəllim adı şərəfli addır. Vətəninə, xalqına bağlı olan hər bir adam, qədirbilən adam müəllimini həmişə qəlbində saxlayır, onu daim yad edir. "

Mən də, sevimli həmkarlarım, Beynəlxalq Müəllimlər günü münasibətilə tutduğunuz çətin, şərəfli, müqəddəs yolda bundan sonra da sizə uğurlar diləyir, şəxsi həyatınızda xoşbəxtlik, səadət arzulayır və hər birinizi " Müəllim ömrü " şeirimlə təbrik edirəm.

### MÜƏLLİM ÖMRÜ

**Ən parlaq ulduzdu, nur saçan aydı,
Dalğalı dənizdi, ləpəli çaydı.
Ömrü ömürlərə paylanan paydı,
Safdı, müqəddəsdi müəllim ömrü!**

**Həlimlik gözünün qarasındadı,
Əzizlik qəlbinin parasındadı.
Hər an şagirdlərin arasındadı,
Kövrəlmiş bir səsdi müəllim ömrü!**

**Günəş hərarətli, dağ vüqarlıdı,
Saçları dalğındı, bəyaz qarlıdı.
Övladlı, nəvəli, gözəl yarlıdı,
Mehriban bir kəsdi müəllim ömrü!**

**Həyatda hər zaman gözləri toxdu,
Ürək ovsunlayan sözləri çoxdu.
Dünyanın varında gözləri yoxdu,
Odlu bir nəfəsdi, müəllim ömrü!**

**Ən parlaq ulduzdu, nur saçan aydı,
Dalğalı dənizdi, ləpəli çaydı.
Ömrü ömürlərə paylanan paydı,
Safdı, müqəddəsdi müəllim ömrü!**

Ədalət.-2019.-5 oktyabr.-S.13.